Mirzə Çəlil Məhəmməd Qulu zadə.

„MOLLA NƏSRƏDDIN“ haqqьnda XATIRƏLƏR

(1870—1932)

HƏMIDƏ XANЬM

(Çəlil Məhəmməd Qulu zadənin rəfiqəsi Həmidə xanьmьn surnalьmьz ycyn jazdьqь xatirə).

Bizim əziz, mərhum Mirzə Çəlil qadьnlarьn kişilərlə həm hyquq olmalarьnьn ən bəjyk tərəfdarь idi. Bu sahədə o ezyny Çon-Styart-Mill ilə bərabər dutur-du.

Həqiqətdə onun əsərlərində qadьnь əsarətdən xilas etmək, ajaqa qaldьrьb tərbijə etmək, onu tə'lim edib ona insan hyququ vermək jolundakь baş məqsəd və məsləki ajdьnçasьna gezə carpьr. O bytyn həjatьnь, dənməz bir surətdə ez məqsədi jolunda calьşьb axьrda da ez məramьna catdь və nail oldu.

1905-çi ildə, oqtjabrьnьn 13-də bizim ilk tanьş olduqumuz gyndə, ondan, atamьn bir neçə əsərinin mətbəədə cap edilməsini xahiş etdim. Bu halda o belə sual verdi«—Nə ycyn siz Tiflisdə qadьnlara məxsus çəmijjəti—xejrijjə təşkil edib orada calьşmajьrsьnьz?»

Jalьnьz onun gestərişi və jardьmьilə biz Tiflisdə həman xejrijjə çəmijjətini təşkil etdik və o da 1917-çi ilə kibi davam edib calьşьrdь. Ozaman Mirzə Çəlil ezy də Tiflisdəki çəmijjəti-xejrijjənin (kişilərə məxsus) katibi olaraq işləjirdi. Bu çəmijjətin sədiri o zaman İbrahim Aqa Vəkilov idi. Həmin çəmijjətlə əl-ələ olaraq biz Tiflisdə xejrijjə mənfəətinə tiatьr tamaşalarь qonserilər və lotərejalarь, mysamirələr tərtib edirdik.

O zaman, Mirzə Çəlil, birinçi olaraq ez kicik qьzь Mynəvvərə, izn verdi ki, xalq evində tərtib verilən teatr tamaşalarьnda, oqlanlarla bərabər iştirak etsin. Bu vaqitlərdə səhnədə qadьn rollarьnь başlьça surətdə jalьnьz kişilər ijfa edirdilər.

1908-çi ildə, biz Mirzə Çəlil ilə birlikdə, bizim Kəhrizli kəndində, oqlan və qьzlarьn birlikdə oqumasь ycyn bir məktəb aca bildik. Bu məktəbin planьnь Mirzə Çəlil ez əlilə hazьrlamьşdь. Məktəb hazьr olandan sonra biz oraja kəntliləri ez arvadlarilə bir jerdə caqьrdьq. Içlas acdьq. Elm oqumanьn fajdasь barəsində onlarla səhbət apardьq; başa saldьq. Bir coqlarьnь hətta jalvardьq ki, balalalarьnь məktəbə buraqsьnlar. Axьrda bir coq zəhmətlə bu məktəbə 40 nəfərə qədər coçuq toplaja bildik. Bu uşaqlarьn arasьnda 8 nəfər qьz uşaqь jьqьlmьşdьlar. Bir azdan sonra biz fikirləşdik ki, bu məktəbi ibtidai kənt təsərryfatь məktəbi şəklinə salaq.

Hətta bu məktəbə məxsus olaraq 5 desjatin suvarьlan əkin jeri də ajьrmaq istəjirdik. Biz bu barədə nə qədər calьşdьqsa da, lakin juqarь hekymət adamlarь bu jolda izin vermədilər. O zaman bizim məktəbi bitirən kəntli balalarьnь ez xərçimizlə Tiflisə aparьb orada Myştəhiddəki Tiflis ibtidai kənt təsərryfatь məktəbinə qojub təhsilə davam etdirirdik.

1907-çi ildə, majьn 19-da «Molla Nəsrəddin» surnalьnьn 20-çi nomrəsində Mirzə Çəlil «Erməni və Mysəlman qadьnlarь» adьnda bir məqalə jazmьşdь. Bu məqalə ystyndə o zaman bəjyk bir qavqa qaldьrьlmьşdь. Tiflisin mysəlman əhalisi bərk həjəçanə gəlib hətta Mirzə Çəlili eldyrmək belə istəjirdilər. O zaman Fajiq Nə'man zadə Mirzə Çəlilə xəbərdarlьq etmişdi. Mirzə Çəlil hətta kycəjə cьqmasьna belə mane olurdular.

N'man zadə şəxsən mescidlərdə və başqa jьqьnçaqlarda cьqьşda bulunub Mirzənin məqaləsini izah edib çamaatь başa salьb həjəçanь jatьrdьrdь. Hətta başqa şəhərlərdən də Mirzəjə məktub və teleqrallar gendərilib onu hədələjirdilər, səjyb bihyrmət edib ona ez nifrətlərini e'lan edirdilər. Mirzə Çəlil isə o məktublarь alьb sakit bir halda oqujub gylymsəjərək jazь stolunun saq jeşigini acьb hamьsьnь oraja toplajьrdь. (elsun olsun ki, bytyn məktublar, sandarmalar tərəfindən 1918-çy ildə Mirzə Çəlilin evini aqtardьqlarь zaman zəbt edilmişlər).

Hər halda bu məqalənin nətiçəsi olaraq Tiflisin dysyncəli əhalisi azad bir viçdanla ez qьzlarьnь məktəblərə bьraqьb mədəni olmalarьna razi oldular.

Jalьnьz bu məqalədən sonra mən ez taleimi Mirzə Çəlil ilə baqlamaqь qərar verib onun bu fajdalь işində ona jardьmcь olmaqa razi oldum. Jenə də həmən ildə ijunun 2-də, surnalьn 22-çi nomrəsində Mirzə Çəlil iki acьq məktub dərç etmişdi. Bu məktublar Zaqavqasja Şejxul-Islamьna jazьlmьşdь. Məktublar ymumən qadьn məsələsinə dajir idi. Şəjxul-Islam bundan son dərəçə inçijib çanişinə şikajətdə bulunmuşdu. Nətiçədə də surnalь qapadьlar.

Bu ittifaqdan sonra Mirzə Çəlil bizim Kəhrizli kəndində bizə qonaq qalьrdь. Bu vaqt Mirzə Çəlil artьq çiddijjətlə xahiş edirdi ki, onun kim olduqunu kəntdə hec kəs bilməsin. Lakin bizim onunla nikahlanmьz kəsildikdən sonra (1907-çi ildə 15 ijun). Bir coq bəjlər bu işdən artьq dil tang olub məndən narazь qaldьlar. Hətta bir zaman bizim Aqdamdan kecəçəgimizi xəbər dutub mejdancadan bizə basqьn edib orada Mirzə Çəlili eldyrmək istəmişdilər. Bu əhvalatь mənim əmim oqlu Ibiş bəj[1] xəbər dutmuşdu ki, ez janьna 20 nəfərə kibi silahlь adamlar toplajьb bizim faetonu da aralьqa alьb Aqdamdan saləmət kecməgimizə imkan verdi.

1) Ibiş bəj hekymət adamlarьna qarşь cьqdьqь ycyn 12 il qatorqaja məhkum edilib 1905-çi ildə əfvi-ymumilə Sibirdən xilas olub qajьtmьşdь.

Ə. HƏQVERDJEV

MOLLA NƏSRƏDDIN HAQQЬNDA XATЬRATЬM.

«Molla Nəsrəddin» surnalь və xysusən Çəlil Məhəmməd Qulu zadə haqqьnda xatьrat jazmaq demək 27 sənə bundan qabaq işə dyşmyş və 25 sənə dolanmaqda davam etmiş bir çərxi nəzərə gətirmək deməkdir. Bu çərxin məhvəri Mirzə Çəlil və onun surnalь idi. Onun ətrafьnda ən javьqlьqda dolananlar «Molla Nəsrəddinin» tərəfdarlarь ona ez fikirləri ilə qələm ilə kemək verənlər idilər. Ikinçi sьra surnalь oqujanlar, ondan həzz aparanlar və onun rəvaçьna calьşanlar. Ycyncy sьrada «Molla Nəsrəddin» tərəfindən zərbələrə, tazijanələrə, istehzalərə, tənqidlərə ducar olub olmazьn fəhşlərini verənlər el arasьnda «Molla Nəsrəddin» haqqьnda nəv-bə-nev latajjilat səjləjib iftiralar buraqanlar idi. Belə bir myhit icərisində «Molla Nəsrəddin» davam edib gəldikçə dostlarьnь artьrьb dyşmənlərini zəlil salmaqa nail oldu.

Hesabsьz hədə kaqьzlarьna, fəhşlərə, həçvlərə, maddi və «mə'nəvi» və'dələrə e'tina etməjərək ez dutduqu məqsəddən, məsləkdən bir qədər geri durmamaqla Mirzə Çəlil ez azaçьq dostlarilə birlikdə axьrda qalьb galib həmişəlik bir ad və tyrk ədəbijjatьnda xysusi bir cьqьr «Molla Nəsrəddin» devri qoja bildi.

Mirzə Çəlil zatən az danьşan, bəjyk məçlislərdən qacan, jьqьnçaq xoşlamajan, təklik səvən bir şəxs idi. Bununla bahəm dyşmənlə də gerysyb bir az səhbət etdikdən sonra dyşmənin yrəgini ələ alьb ezynə şərik etməzsə idisə də surnal dyşmənligindən cəkindirirdi.

«Molla Nəsrəddinin» qyvvətli dyşmənləri, məsələn Iravan və Nəxcivan xanlarь ja Qarabaq, Gəncə bəjləri Tiflisə gələndə surnalьn idarəsinə getməgi ezlərinə borç hesab edirdilər və getməkdən məqsəd ancaq Mirzə Çəlilin o «murdar sifətini» germək və sonra lazьmi jerində onu məsxərə etmək idi. Nihajət bu xəjal ilə onun janьna gedib onunla bir qədər mysahəbə etməkdən sonra başqa bir vəzijjətdə cьqьrdьlar. Və dejirdilər: «çanьm, kişinin jazdьqlarь doqrudur ancaq adam hər doqrunu jazmamalьdьr» dejirdilər: Deməli onun haqlь olduqunu dyşmənləri də təsdiq edirdilər.

«Molla Nəsrəddin» surnalь cьqmaqa başlajanda mən Şuşada idim; 1906-çь sənənin 30 Apreldə cьqan birinçi nomrəsi maj ajьnьn əvvəllərində əlimizə kecdi! Bu nomrə şəhər əhalisi arasьnda bir bomba tək partladь. Birinçi nomrənin birinçi səhifəsində Mollalara zərbə vurmasь. Həmişə ysuli-şejxi və haçь Kərimxanь səhbətlərinə məşqul olan və mollalarь «başlarьnda gezdirən» Şuşa əhalisinə tə'sirini qələm təsvir etməkdən açizdir, qah onun adьnь musioner və xalqi mysəlmanlьqdan dendərib xacpərəstligə cəkmək istəjən surnal qojdular, gah danьşьrdьlar ki, guja bu surnalь nəşr edən babilərdir: mollalar surnal jazanlarь və oqujanlarь təkfir edib dejirdilər: bu surnal gərək bir mysəlmanьn evinə girməsin, onu nə inki oqumaq—ələ belə almaq haramdьr. onu maşa ilə getyryb ajaq joluna atmalьdьr. Bu sezlər bir Qarabaqda joq Zaqafqasjanьn hər bir şəhərlərində dejilirdi. Mirzə Çəlil həmişə dejirdi: «Mən bu surnalь Tiflisdə cьqartmajьb sajir bir şəhərdə məsələn Bakьda, Iravanda cьqartsa idim jəqin birinçi nymrədən sonra mənim idarəmi daqьdьb ezymy də eldyrərdilər: Tiflis, xysusən «Davidovsqiv» kycədəki mysəlman məhəlləsindən uzaqdьr, mənim qarьmьn arasьna girmiş, ancaq burada bir nev' surnal cьqartmaq mymkyndyr. «Molla Nəsrəddin»in birinçi nymrəsi Şuşada neçə adamьn hysni-təvəççəhyn də qazandь. Şuşa zijalьlarьndan advaqat Həsənəli bəj Sarьcalь birinçi abunə jazьlьb «Molla Nəsrəddin»-ə «Mirzə Qoşun Əli Təbrizi» təxəllysilə məqalələr jazьb gendərməgə başladь və «Molla Nəsrəddin»in intişarь jolunda da lazьmi sə'jdən geri durmadь. O kişi həmişə dejirdi: «Tiflisə jolum dyşərsə, əlbəttə gedib Məhəmməd Qulu zadəni geryb yzyndən epəçəgəm». Belə də biz hamьmьz jə'ni zijalьlar Mirzə ilə gerysməgi arzь edirdik.

Mirzə Çəlil ilə birinçi dəfə mən Şuşa rijalnь məktəbin juqarь sьnьflarьnda olduqum zaman tanьş olmuşdum. Jaj fəslində yc nəfər Iravan Myəllimi Şuşa myəllimlərinə qonaq gəlmişdilər: bunlarьn birisi Çəlil Məhəmməd Qulu zadə idi. Onunla javьq tanьş olmaqьm 1906-çь sənəsinin nojabr ajьnda myjəssər oldu.

Nojabr ajьnda Rusjadan Tiflisə gəlib bir qədər məhmanxanada rahat olduqdan sonra bir baş «Molla Nəsrəddin» idarəsinə getdim. Nihajət Məhəmməd Qulu zadəni gerə bilməjib Fajiq Nə'mən zadə ilə bir az səhbət eləjib Mirzənin mənzilinin adresini də ondan ejrəndim, və o biri gyny onun janьna getməgi qərara aldьm.

O biri gyny, gyn orta zamanь mənzilə qajьdьb masamьn ystyndə bir vizit qartoçqasь tapdьm. Çəlil Məhəmməd Qulu zadə. «Molla Nəsrəddin» məçmuəsinin redaqtoru; bir saat ondan kecməmiş davidovisqi kycədə Mirzə ilə bahəm əjləşib səhbətə məşqul olduq. Surnalьn məqsədi, məsləki, dili haqqьnda coq danьşьqlar oldu: Mirzə dejərdi: «Adьnь myhərrir qojub ortalьqa cьqan gərək bir-bir vəzijjəti nəzərdə dutsun. Jəqin myhərririn dyşməni dostundan coq olaçaq: dyşməndən qorqan adьnь myhərrir qojmaqa haqlь dejil. çamaatьn ancaq xoşuna gələnləri jazan, axundlara, bəjlərə, xanlara, sərvətdarlara jaltaqlьq edib miljonlarla əzilənləri jaddan cьqardan myhərririn qijməti bir qara pouldur o da qəlb. Mən hec bir şej